# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 avqust tarixli 77 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 avqust tarixli 77 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində “Respublikası” sözü “Respublikasının” sözü ilə əvəz edilsin.

1.2. həmin Qərarla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” üzrə:

1.2.1. adında, 1-ci, 2-ci, 3-cü və 4-cü hissələrində “Respublikası” sözü “Respublikasının” sözü ilə əvəz edilsin;

1.2.2. 3.5-ci bənd ləğv edilsin;

1.2.3. 4.1-ci bənddə “Ahıllar Evi” sözləri “Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi” sözləri ilə əvəz edilsin;

1.2.4. 4.2-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “Əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Elşad Əliyev**
**Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini**

Naxçıvan şəhəri, “ 9 ” “ yanvar ” 2026-cı il

№ 3